# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 84** **Bakı şəhəri, 5 mart 2020-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017 ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 dekabr tarixli 463 nömrəli, 10 dekabr tarixli 471 nömrəli, 17 dekabr tarixli 477 nömrəli; 2020-ci il 31 yanvar tarixli 28 nömrəli, 7 fevral tarixli 34 nömrəli və 17 fevral tarixli 44 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3926 20 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3926 20 000 | – geyim və geyim üçün ləvazimatlar (əlcəklər, təkbarmaq əlcəklər və yarımələcəklər də daxil olmaqla): | | |
| 3926 20 000 1 | – – baxillər | - | 0 |
| 3926 20 000 9 | – – digərləri | - | 15 |

1.2. 4015 19 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4015 19 000 | – – digərləri: | | |
| 4015 19 000 1 | – – – steril və qeyri-steril əlcəklər | cüt | 0 |
| 4015 19 000 9 | – – – digərləri | cüt | 15 |

1.3. 6307 90 980 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6307 90 980 | – – – – digərləri: | | |
| 6307 90 980 1 | – – – – – tibbi (cərrahiyyə əməliyyatı və ya prosedur üçün) maskalar və respiratorlar | - | 0 |
| 6307 90 980 9 | – – – – – digərləri | - | 15 |

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir və 2020-ci il iyunun 1-dək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 8 mart.- S.5.